

# Bu şanlı Qələbə Azərbaycan tarixində əbədi yaşayacaqdır

***Həm işğal dövründə, həm müharibə dövründə bütün təzyiqlərə, bütün bəyanatlara baxmayaraq, bizim qabağımızda heç bir qüvvə dayana bilmədi. Biz Ermənistan ordusunu darmadağın etdik, erməni mifologiyasına son qoyduq, bütün dünyaya sübut etdik ki, "yenilməz Ermənistan ordusu" nəyə qadirdir və bütün dünyaya xalqımızın böyüklüyünü nümayiş etdirdik.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

***Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Füzuli rayonuna səfəri çərçivəsində dövlətimizin başçısı Füzuli-Ağdam avtomobil yolunun, Füzuli Memorial Kompleksi, Dövlətyarlı kəndində yeni "ağıllı kənd", "Azərişıq" ASC-nin Füzuli şəhərində Rəqəmsal Yarımstansiya İdarəetmə Mərkəzi və ilk yaşayış binalarının təməllərini qoyub.***

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva səfər çərçivəsində, eyni zamanda, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər.

Dövlətimizin başçısı görüşündə qələbəmizi şərtləndirən amillərdən geniş bəhs edib. Ölkə rəhbəri deyib: "Mənə güc verən məhz xalqımızın əzmkarlığı idi. Bu torpaqları görməyən cavanlarımız bu torpaqlar uğrunda ölümə gedirdilər. Bu, xalqımızın böyüklüyünü bir daha göstərir".

Azərbaycan Prezidenti çıxışında uzun illər ərzində xalqımızın bir arzu, bir fikirlə yaşadığını, nə vaxtsa haqq-ədalətin bərpa ediləcəyini, "məğlubedilmiş" sözünə son qoyulacağını, bundan sonra isə qürurlu, müzəffər xalq kimi ömür sürəcəyinə əminliyini xatırladıb. Ölkə rəhbəri "əgər xalqımız buna inanmasaydı, əgər cəmiyyətimiz bizim o sahədəki siyasətə dəstək olmasaydı müharibəni bu nəticələrlə başa vurmaq çox çətin olardı. Ona görə, bu, bizim hamımızın qələbəsidir, hamımızın təntənəsidir",- deyə vurğulayıb.

Azərbaycan xalqı elə bu inam və əminliklə də ötən il sentyabrın 27-də işğalçı Ermənistan ordusunun hücumuna qarşı əks-həmlə əməliyyatlarına başladı. Qırx dörd günlük Vətən müharibəsində Silahlı Qüvvələrimiz qəsbkarın 30 illik işğalına son qoydu. Savaş dövründə ən böyük uğurlarımızdan bir də Füzulinin yağı tapdağından azad edilməsi oldu.

Ekspertlərin bildirdiyinə görə, Füzuli əməliyyatı ordumuzun İkinci Qarabağ müharibəsində cənub-şərq cəbhəsində həyata keçirdiyi ən əhəmiyyətli döyüşlərdən biri kimi heç vaxt unudulmayacaq. Çünki savaş başlayanda cənub-şərq cəbhəsində Silahlı Qüvvələrimiz Füzuli və Cəbrayıl istiqamətlərində düşmənin müqavimətini qıraraq, birinci eşelondakı erməni bölmə və hissələrini geri çəkilməyə məcbur etdi. Lakin Füzuli istiqamətində düşmən kifayət qədər ciddi müqavimət göstərdi. Azərbaycan Ordusu bütün imkan və resurslarını əməliyyatların uğurla keçirilməsinə yönəltdi. Ermənistan silahlı birləşmələri isə nə qədər ciddi müqavimət göstərsə də, ordumuzun Füzuli şəhərinə birbaşa hücumunun qarşısını heç nə ilə ala bilmədi. Bu döyüşlərin uğurla nəticələnəcəyi isə xalqımızda şübhə doğurmurdu. Çünki, müzəffər Ali Baş Komandan İlham Əliyev müharibə zamanı əməliyyatların gedişatına şəxsən nəzarət edirdi. Odur ki, itkiləri minimuma endirmək məqsədilə ordumuz Füzuli istiqamətindən hücumu imitasiya etdi. Əsas zərbəni isə Cəbrayıl istiqamətində Cəbrayıl şəhəri və oradan isə Hadrut qəsəbəsinin azad olunmasına yönəltdi. Beləliklə, əsgər və zabitlərimizin misilsiz şücaəti, qəhrəmanlığı ilə tarixi qələbəmiz reallaşdı. "Ohanyan xəttinin" yarılması ilə Azərbaycan Ordusu döyüşlərin gedişində möhtəşəm bir zəfərə imza atdı.

Prezident İlham Əliyev bu misilsiz qələbədən dərhal sonra – keçən il oktyabrın 17-də xalqa müraciət edərək, Silahlı Qüvvələrimizin Vətən müharibəsində öz xilaskarlıq missiyasını uğurla həyata keçirdiyini, parlaq qələbələr əldə etdiyini bildirdi. Dövlətimizin başçısı daha sonra böyük sevinc hissi ilə azad edilmiş növbəti yaşayış məntəqələrinin adlarını açıqladı, Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndlərinin və Füzuli şəhərinin düşməndən təmizləndiyini diqqətə çatdırdı. Ölkə rəhbəri dedi: "Mən bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu münasibətlə əziz füzulililəri ürəkdən təbrik edirəm. Uzun illərin doğma torpaq həsrəti sona çatır. Biz öz üzərimizə düşən missiyanı şərəflə yerinə yetiririk, ölkəmizin ərazi bütövlüyünü bərpa edirik və bərpa edəcəyik. Füzuli uğrunda döyüşlər ağır döyüşlərdi. Vaxt keçəcək bu döyüşlər haqqında kitablar yazılacaq, əsərlər yazılacaq. Doğrudan da çox böyük peşəkarlıq, məharət, şücaət, fədakarlıq tələb edən döyüşlərdi…".

Dövlətimizin başçısı Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bu əməliyyatın önəmini xatırladaraq, düz bir il bundan əvvəl şanlı Azərbaycan Ordusunun Füzuli şəhərinin və bir neçə kəndinin işğalçıdan azad edildiyini, Azərbaycan Bayrağının qaldırıldığını və beləliklə, uzun fasilədən sonra Azərbaycan dövlətinin bu ərazilərdə öz suverenliyini gerçəkləşdirdiyini diqqətə çatdırıb. Dövlətimizin başçısı deyib: "Bu, tarixi hadisədir. Həmin an- 17 oktyabr günü Azərbaycan xalqının çoxəsrlik tarixində xüsusi yer tutacaq. Çünki məhz oktyabrın 17-də bizim böyük şəhərimiz Füzuli işğalçılardan azad edildi".

Ölkə rəhbərinin çıxışında vurğulandığı kimi, müharibə zamanı Füzulinin azad olunmasının çox mühüm əhəmiyyəti var idi, çünki Cəbrayıl və Hadrutdan sonra üçüncü böyük yaşayış məntəqəsi idi.

Füzuli uğrunda çox şiddətli döyüşlər getdiyini bildirən dövlətimizin başçısı daha sonra deyib: "Bir neçə gün ərzində şəhərin ətrafında çox ciddi əməliyyatlar aparılırdı. Düşmən müqavimət göstərirdi, amma buna baxmayaraq, Azərbaycan Silahlı Qüvvələri öz tarixi missiyasını yerinə yetirdi. Mən Füzulinin azad olunması xəbərini Azərbaycan xalqına çatdıranda artıq Azərbaycan xalqı və hesab edirəm, bütün dünya gördü ki, biz öz şərəfli missiyamızı sona qədər yerinə yetirəcəyik, heç bir qüvvə bizi dayandıra bilməz".

Füzuli azad olunandan sonra Ermənistan ordusunda fərarilik halları daha geniş vüsət aldı, əsgərlərin qaçışının qarşısını almaq üçün işğalçı ordunun rəhbərliyi onların, hətta zəncirlə bağlanılması əmrini verdi. Beləliklə, düşmən Azərbaycan Silahlı Qüvvələrinin önündə dura bilməyəcəyini anlayıb, silah-sursatı da ataraq, qaçmağa başladı. Bununla uğurlu döyüş əməliyyatlarının sürəti daha da artdı, artıq ordumuzun önü açıldı, digər şəhər və rayonlarımızın azad edilməsinin tez bir zamanda başa çatacağı əminliyi gücləndi. Prezident, Ali Baş Komandan İlham Əliyev Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bu məqamla bağlı deyib: "Füzuli şəhərinin azad edilməsi bizə əlavə mənəvi güc verdi. Azərbaycan Silahlı Qüvvələri bundan sonra böyük əzmkarlıq göstərərək xilaskarlıq missiyasını uğurla davam etdirdi. Füzuli azad olunandan üç gün sonra Zəngilan şəhəri azad edildi, ondan beş gün sonra Qubadlı, ondan sonra biz Laçın dəhlizinə çıxdıq və beləliklə, müharibənin taleyi heç kəs üçün sirr deyildi".

Yeri gəlmişkən, xatırladaq ki, bu uğurlu əməliyyatlar elə bir vaxta təsadüf edirdi ki, bir sıra dünya gücləri, nüfuzlu beynəlxalq təşkilatlar müharibəni dayandırmaq üçün Azərbaycana təzyiqlər edir, haqlını yox, işğalçını, qəsbkarı dəstəkləyirdi. Amma Azərbaycan Prezidentinin qətiyyəti onların bu səyini heçə endirdi. Ordumuz qalibiyyət yürüşünü inamla davam etdirdi. Çünki daha başqa bir yol qalmamışdı. Azərbaycan öz əzəli torpaqlarını nəyin bahasına olursa-olsun, azad etməli idi.

Ali Baş Komandan İlham Əliyev Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bu barədə də ətraflı danışıb. "Həm işğal dövründə, həm müharibə dövründə bütün təzyiqlərə, bütün bəyanatlara baxmayaraq, bizim qabağımızda heç bir qüvvə dayana bilmədi. Biz Ermənistan ordusunu darmadağın etdik, erməni mifologiyasına son qoyduq, bütün dünyaya sübut etdik ki, "yenilməz Ermənistan ordusu" nəyə qadirdir və bütün dünyaya xalqımızın böyüklüyünü nümayiş etdirdik. Bu şanlı Qələbə çoxəsrlik Azərbaycan tarixində əbədi yaşayacaqdır",- deyə dövlətimizin başçısı vurğulayıb.

Düşmən işğal dövründə Füzuli rayonunu yerlə yeksan edib, bütün yaşayış evlərini, infrastrukturu dağıdıb, təbii sərvətləri talayıb. Müharibədən ötən bir il ərzində Füzulidə genişmiqyaslı bərpa-quruculuq işləri görülüb. Füzuli Beynəlxalq Hava Limanının tikintisinə başlanılıb və bu günlərdə istifadəyə veriləcəyi nəzərdə tutulub. Bundan başqa, "Füzuli" və "Şükürbəyli" yarımstansiyaları istifadəyə verilib. Yeni yolların çəkilişi uğurla aparılıb.

Prezident İlham Əliyev Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bildirib:"Biz hətta Şuşaya qədər Zəfər yolunu çəkdik və indi Füzuli–Şuşa magistral yolunun çəkilişi gedir. Hazırda Füzuli–Hadrut, Füzuli–Cəbrayıl, Füzuli–Ağdam yollarında işlər gedir".

Bütün bu uğurlu layihələr isə keçmiş köçkünləri tezliklə öz doğma torpaqlarına qovuşdurmaq məqsədi daşıyır. Füzulinin təməl daşının qoyulması mərasimi də bunun bariz ifadəsidir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***